# Ağappaq əbədi sükut

## Ernest Heminqueyin “Kilimancaronun qarı” hekayəsi haqqında

**əvvəli ötən saylarımızda**

Oğlunun müsibətindən sonra Ellen məşuqlarıyla əlaqələrini biryolluq kəsir, artıq içkiylə də təsəlli tapmır. Qadının qəlbində yeni həyata başlamaq ehtiyacı bütün gücüylə baş qaldırır: “Öz tənhalığının dəhşətini qadın qəfildən dərk edib bundan bərk qorxuya düşdü. Amma ona elə birisi lazım idi ki, həmin adama hörmət eləyə bilsin... Hər şey çox sadə şəkildə başlandı - qadın onun kitablarını xoşlayır, həyat tərzinə qibtə edirdi. Qadına elə gəlirdi ki, o məhz ürəyinə yatan işi görür, məhz görmək istədiyi işlə məşğuldur. Ona yiyələnmək niyyətiylə atdığı addımlar axırda qadının ürəkdən vurulmasıyla sonuclandı - bütün bunlar qadının öncədən qurmağa hazırlaşdığı həyatın mütənasib şəkildə əks silsiləsi oldu, o isə əvvəlki həyatının artıqlarını satırdı. Satırdı ki, əvəzində təminatlı yaşayış, dəbdəbə qazansın - bunu danmaq olmaz. Qadın ona nə desən almağa, hər bir arzusunu yerinə yetirməyə canla-başla hazırdı. Bundan savayı, bir qadın kimi də qiyamət idi. Yolunu məhz beləsiylə davam etdirməyin əsla əleyhinə deyildi, çünki bu qadın daha varlıydı, daha canayatan idi, özü də məhəbbət məsələlərindən yaxşı baş çıxarırdı, üstəlik, dava-dalaş salıb qan qaraltmırdı. İndisə qadının yenidən qurduğu həyat sona yetmək üzrəydi...”

Bütün bunları düşündükcə Harri ona ana şəfqəti göstərən qadını incitdiyinə peşman olur, ölümüylə Ellenə daha bir zərbə vuracağını anlayıb mənasız mübahisələrə son qoyur: “Bu qadınla heç zaman məxsusi öcəşməzdi, sevdiyi o biri qadınlarla isə yaman tez-tez çəkişər, o qədər höcətləşərdi ki, axırda umu-küsünün pası onları bir-birinə bənd eləyən zənciri çürüdüb sıradan çıxarardı. O, hədsiz dərəcədə bərk sevirdi, hədsiz dərəcədə çox şey tələb edirdi, axırda da heç nəsiz qaldı”.

***

Harri ölüm ayağında yazmalı olduğu materialları, şahidlik elədiyi dəhşətli həyat səhnələrini bir-bir gözünün qarşısından keçirir, xəyalında onları bir sapa düzüb, bir kitaba, bir hekayəyə, hətta bir abzasa, bir cümləyə, Folknerin dediyi həmin o iynənin gözünə yığmağın fantastik yollarını arayır:

“O qədər işlər olmuşdu, yazılası o qədər mətləblər vardı, gəl görəsən. Həmişə də fikirləşirdi ki, günlərin bir günü, nəhayət, bu barədə yazacaq. Bunların hamısını o özü yaşamışdı, hamısını öz gözüylə görmüşdü, bu barədə yazmağa borclu idi, amma indi daha yazmayacağı dəqiqdir...

- Mən yazmaq istəyirəm, - o dedi.

- Bir az bulyon iç ki, canın bərkisin.

- Mən bu gün öləcəm. Canımın bərkiməsi mənim nəyimə gərək?!

- Harri, faciə düzəltmək lazım deyil, - qadın dedi.

- Sən bəyəm iybilmə qabiliyyətini itirmisən? Ayağım yarıyacan çürüyüb. Bulyonu neynirəm! Molo, mənə sodalı viski gətir.

- Bulyon iç, xahiş edirəm səndən, - qadın nəvazişlə dilləndi...

- Sən stenoqrafik üsulla yazmağı bacarırsan?

- Yox, bacarmıram, - qadın dedi.

- Eybi yox, elə də vacib deyil.

Əlbəttə, daha vaxt çatmazdı, amma bütün bunlar bir-birinə elə bitişikdi, o qədər iç-içəydi, hamısını bir abzasa sığışdırmaq mümkün kimi görünürdü...”

Harri Smit əmindir ki, işdi-şayəd, əgər ölməyib sağ qalsa, bu qadından, elə o biri kübar qadınlardan da heç vaxt heç nə yazmayacaq, çünki varlılar darıxdırıcı məxluqlardır.

***

Çənəsi ölüm tələsi goreşən əcaib səslər çıxara-çıxara Harrinin yatdığı çadırın böyür-başında əcəl elçisi kimi sülənir. Leş yeyən quşlar gündükdə durub ölümdən müjdə gözləyirlər. Harri Smit sonuncu yuxusuna dalır:

“Ölüm bir az da qabağa gəldi, indi o daha ölümlə danışa bilmirdi; onun danışa bilmədiyini görəndə ölüm lap irəli yeridi, o da cəhd elədi ki, ölümü səssizcə qovsun, amma sinəsindən basabasa ölüm elə hey yuxarı dırmaşırdı, dırmaşa-dırmaşa axırda çıxıb düz sinəsinin üstündə oturdu, özü də onu nə tərpənməyə qoydu, nə ağzını açıb danışmağa; həmin anda o, qadının səsini eşitdi:

- Bvana yuxuladı. Çarpayını qaldırın, aparın içəri, amma ehtiyatla.

O deyə bilmədi ki, ölümü qovsunlar; ölüm də bütün ağırlığını onun üstünə salıb nəfəs almasına imkan vermədi. Nökərlər çarpayını qaldıranda birdən hər şey keçib getdi, sinəsinin üstündəki ağırlıq da qəfildən yoxa çıxdı”.

Harri Smitin yaralı gövdəsinin macərası burada tamama yetir.

Ancaq onun gördüyü yuxu davam eləyir. Bu, artıq yuxu deyil, bədəndən çıxan ruhun yeni macərasıdır.

**davamı növbəti sayımızda**



*F.Uğurlu*

Yeni Azərbaycan.- 2025.- 10 dekabr, №225.- S.7.